UOT 336.1

*Fərid Rafiq oğlu MƏMMƏDHƏSƏNOV*
*AzDİU-nun doktorantı*
*E-mail: fmammadhasanov@gmail.com*

# BÜDCƏLƏRARASI MÜNASİBƏTLƏR ÇƏRÇİVƏSİNDƏ YERLİ BÜDCƏLƏRİN BALANSLAŞDIRILMASI

*Xülasə*

**Tədqiqatın məqsədi:** – büdcələrarası münasibətlərin təşkilati-iqtisadi mexanizminin səmərəli sisteminin qurulması, ölkənin maliyyə resurslarının yerli büdcələr arasında yenidən bölüşdürülməsi və büdcələrarası münasibətlər çərçivəsində yerli büdcələrin balanslaşdırılması imkanlarının araşdırılması.

**Tədqiqatın metodologiyası:** – qoyulan problemlərin həlli üçün məntiqi ümumiləşdirmə; struktur-funksional təhlil; sistemli-kompleks təhlil və qiymətləndirmə metodlarından istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti:** – büdcələrarası münasibətlər çərçivəsində yerli büdcələrin sosial-iqtisadi prioritetləri nəzərə alınmaqla məqsədyönlü istifadənin effektivliyinin artırılmasına imkan verəcəkdir.

**Tədqiqatın nəticələri:** – alınmış nəticələrdən ölkənin maliyyə resurslarının yerli büdcələr arasında yenidən bölüşdürülməsi və büdcələrarası münasibətlər çərçivəsində yerli büdcələrin balanslaşdırılması üzrə təklif və tövsiyələr hazırlanmasında istifadə edilə bilər.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi:** – məqalədə Azərbaycan Respublikası regionlarının maliyyə təminatının mühüm ünsürü kimi büdcələrarası münasibətlərin təşkili üsulları, regionların davamlı inkişafında büdcələrarası münasibətlərin tənzimlənməsinin müasir vəziyyəti təhlil edilmiş, regionların inkişafında büdcələrarası transfertlər mexanizminin tətbiqi ilə bağlı problemlər aşkar edilmişdir. Həmçinin regionların maliyyə təminatının balanslaşdırılması, büdcələrarası münasibətlərin təşkili, mərkəzi və yerli büdcələr arasındakı qarşılıqlı maliyyə axınlarının minimallaşdırılması üçün analitik əsaslar formalaşdırılmış, ölkənin maliyyə resurslarının regionlararası yenidən bölüşdürülməsi üzrə metodoloji prinsip və meyarlar müəyyən edilmiş, onların ehtiyacları nəzərə alınaraq müxtəlif tədbirlərin dəstəklənməsi ilə bağlı təklif və tövsiyələr irəli sürülmüşdür.

***Açar sözlər: büdcələrarası münasibətlər, büdcə balanslaşdırılması, büdcə tənzimlənməsi, maliyyə təminatı, mərkəzi və yerli büdcələr, tənzimləyici vergilər.***

## *Giriş*

İqtisadiyyatda modernləşdirilmə tələb edən əsas mexanizmlərdən biri - dövlət büdcəsi, büdcə şəbəkəsi və büdcələrarası münasibətlərdən ibarət büdcə sistemidir. Belə ki, dövlətin öz öhdəliklərini zəmanətlə yerinə yetirməsi yalnız balanslaşdırılmış büdcə sistemi ilə mümkündür. Balanslaşdırılmış büdcələrərarası münasibətlər sisteminin formalaşdırılması büdcələrin bərabərləşdirilməsinin baza alətlərinin mövcudluğu ilə yanaşı həm də idarəetmə səviyyələri üzrə xərcləmə səlahiyyətləri və gəlir mənbələri arasında fərqləri azaltmağa imkan verən bu alətlərin çoxvariantlığını da nəzərdə tutur.

**Balanslaşdırılmış büdcələrərarası münasibətlər sisteminin formalaşdırılması**

İqtisadiyyatda modernləşdirilmə tələb edən əsas mexanizmlərdən biri - dövlət büdcəsi, büdcə şəbəkəsi və büdcələrarası münasibətlərdən ibarət büdcə sistemidir. Belə ki, dövlətin öz öhdəliklərini zəmanətlə yerinə yetirməsi yalnız balanslaşdırılmış büdcə sistemi ilə mümkündür. Balanslaşdırılmış büdcələrərarası münasibətlər sisteminin formalaşdırılması büdcələrin bərabərləşdirilməsinin baza alətlərinin mövcudluğu ilə yanaşı həm də idarəetmə səviyyələri üzrə xərcləmə səlahiyyətləri və gəlir mənbələri arasında fərqləri azaltmağa imkan verən bu alətlərin çoxvariantlığını da nəzərdə tutur. Bir maliyyə kateqoriyası olaraq büdcələrarası münasibətlər müxtəlif səviyyələr-

dən olan büdcələr arasında pul vəsaitlərinin hərəkəti üzərində qurulub, onu bir-biri ilə əlaqədə olan aşağıdakı tərkib ünsürlərinə ayırmaq olar: yuxarı büdcədən maliyyə yardımı şəklində verilmiş büdcələrarası transfertlər; eyni səviyyəli büdcələr arasında bölüşdürülmüş əvəzsiz vəsaitlər; yuxarı büdcədən verilən büdcə kreditləri; tənzimləyici vergilər. [1]

Büdcələrarası münasibətlərin təşkili və tənzimlənməsi ilə bağlı nəzəri müddəaların elmi sistemləşdirilməsi aşağıdakı aspektlərin araşdırılmasını nəzərdə tutur:

– müasir dövrdə büdcələrarası münasibətlərin mahiyyətinin dəqiqləşdirilməsi;

– büdcələrarası münasibətlərin təşkili prinsiplərinin müəyyənləşdirilməsi;

– böhranın büdcələrarası münasibətlərin təşkilinə təsirinin təhlil edilməsi;

– büdcələrarası münasibətlərin dövlət tənzimləmələrinin xarakterini təyin edən amillərin müəyyənləşdirilməsi;

– maliyyə tarazlaşdırmasının mahiyyət və məqsədlərinin araşdırılması və açılması;

– büdcə prosesi inkişafının müasir tendensiyalarına uyğun olaraq maliyyə tarazlaşdırması alətlərinin öyrənilməsi.

Büdcələrarası münasibətlər çərçivəsində yerli büdcələrin şaquli və üfüqi balanslaşdırılması məqsədi ilə büdcə tənzimlənməsini həyata keçirməklə, müxtəlif səviyyəli büdcələr arasında gəlirlərin yenidən bölüşdürülməsi məsələlərinə baxılır. [2, s.22-31] Nəzəri müddəaların təhlili göstərir ki, müxtəlif müəlliflərdə “büdcələrarası münasibətlər” anlayışının mahiyyətləri arasında prinsipial fərq aşkarlanmamışdır. Onların əksəriyyəti büdcələrarası münasibətləri büdcə prosesində hakimiyyətin səviyyələri arasındakı münasibətlər kimi müəyyən edir.

“Büdcələrarası münasibətlər” konsepsiyası dar mənada, müxtəlif səviyyələrdən olan büdcələr (və ya eyni səviyyəli büdcələr) arasında maliyyə axınlarının hərəkətini əks etdirir, başqa sözlə, büdcələrarası münasibətlər müxtəlif maliyyə büdcələri arasında maliyyə resurslarının hərəkəti ilə bağlıdır. Beləliklə, büdcələrarası münasibətlər belə mənada əsasən maliyyə münasibətləridir. [3, s. 94]

Büdcələrarası münasibətlər sistemi aşağıdakı ünsürlərdən ibarətdir:

1. Eyni və ya müxtəlif səviyyəli büdcələr arasında əvəzsiz olaraq yenidən paylanan pul vəsaitləri;

2. Qarşılıqlı hesablaşmalar üzrə vəsaitlər;

3. Maliyyə yardımları vəsaitləri: dotasiya, subsidiya və subvensiyalar; kreditlər, büdcə ssudaları;

4. Tənzimləyici vergilər üzrə vəsaitlər (büdcələrarası münasibətlər sistemində qısa bir müddətə (bir ilə) tənzimləyici vergilərin bir ünsürü kimi ancaq dotasiya, subsidiya və sübvensiya kimi istifadə edilən pul vəsaitləri - yalnız bu halda, büdcə vəsaitlərinin istifadəsinin yenidən paylayıcı xarakterindən söhbət gedə bilər).

Büdcələrarası münasibətlər sisteminin belə izahla təsvir edilən məzmunu müxtəlif səviyyələrdən olan büdcələr arasında maliyyə münasibətlərinin tənzimlənməsi mexanizmini və ya büdcə tənzimlənməsini ifadə edir. Bu halda, büdcələrarası münasibətlər sisteminin balanslaşdırılmış büdcə tənzimləmə alətləri kimi: tənzimləyici vergilər şəklində qarşılıqlı hesablaşmalar üzrə vəsaitlər və maliyyə yardımları vəsaitləri çıxış edir. Burada, büdcə tənzimləmə mexanizmləri aşağıdakı məqsədlərə yönəlmişdir: birincisi, üfüqi və şaquli disbalansı azaltmaq, ikincisi, büdcələrarası münasibətlər subyektlərini öz gəlir potensialını artırmağa təşviq etmək.

Bu məsələlərin anlaşılması regionlarda büdcələrarası tənzimlənmə alətlərinin ətraflı şəkildə nəzərdən keçirilməsini tələb edir. Mərkəzi büdcə ilə regional büdcə arasında maliyyə axınlarının, həmçinin regional büdcənin formalaşması və icrasının faktiki göstəricilərinin təhlili, region daxilində büdcələrarası münasibətlərin islahatının aparılması üçün iki əsas istiqaməti qeyd etməyə imkan verir.

Büdcə münasibətlərinin təşkili - idarəetmənin yerli səviyyəsində büdcə sisteminin stabillik şərti kimi gəlir və xərclərin tarazlaşdırılmasına; inzibati büdcə sisteminin ədalətliliyi və açıqlığı şərti kimi ərazi vahidlərinin büdcə təminatı səviyyələrinin bərabərləşməsinə; büdcə sisteminin nəticə-

lilik şərti kimi yerli hakimiyyət orqanlarının gəlirlərin cəlb olunması və xərclərə qənaət üzrə səylərinin stimullaşdırılmasına istiqamətləndirilməlidir. Bu istiqamətlərin hər biri müvafiq subsidləşdirmə (dotasiya və subvensiyalar) üsulları ilə təmin olunur.

Fikrimizcə, bu, bir qədər sadələşdirilmiş yanaşmadır. Burada büdcələrarası münasibətlərin inkişaf vektorunu müəyyən edən məqsədli qurğular dəqiqləşdirilməyib. Hər iki prinsip dövlət siyasəti baxımından xarakterizə olunur. Bəzən büdcələrarası münasibətlərin təşkilinin prinsiplərinə aşağıdakıları aid edirlər: [4, s.116]

– büdcələrin dövlət idarəçiliyinin müxtəlif səviyyələrində müstəqilliyi;

– müxtəlif səviyyəli büdcələr arasında gəlir və xərclərə dair səlahiyyətlərin qanunvericiliklə təsdiqlənmiş qaydada uzunmüddətli əsasda bölgüsünün şəffaf sistemi;

– müxtəlif səviyyəli büdcələrin xərclərinə dair səlahiyyətlərin və onların gəlir mənbələrinin uyğunluğu.

Adları qeyd edilən müəlliflər onu da düzgün olaraq vurğulayırlar ki, bu prinsiplərin təcrübi tətbiqi bir sıra obyektiv amillər üzündən çətinləşir. Həmçinin, bir sıra ölkələrdə regional diferensiasiya birinci prinsipə əməl olunmasını praktiki olaraq qeyri-mümkün edir. Adətən, müxtəlif səviyyələrdə büdcələrin müstəqilliyi dedikdə aşağıdakılar nəzərdə tutulur:

– büdcə vəsaitlərinin xərclənmələrinin istiqamət və həcmlərini müəyyən etmək imkanı;

– əldə olunmuş əlavə gəlirlərin yuxarı hakimiyyət orqanları tərəfindən transfertlər sistemi və ya gəlirlərin bölüşdürülməsi vasitəsilə götürülməsinin qeyri-mümkünlüyü;

– xərclərə dair əlavə səlahiyyətlər üçün yuxarı hakimiyyət orqanlarının qərarları ilə daxil edilmiş kompensasiyaların alınmasının mümkünlüyü;

– xərclər üzrə səlahiyyətlərin hakimiyyətin bütün səviyyələri arasında bölüşdürülməsi və qanunvericiliklə təsdiqlənməsi;

– dövlət idarəçiliyinin müvafiq səviyyələrinin onların üzərinə düşən funksiyaları yerinə yetirmək üçün kifayət qədər gəlir mənbələri ilə təmin edilməsi.

Bu prinsiplərin müxtəlif ölkələrdə reallaşdırılması spesifik şərtlərə uyğun olaraq həyata keçirilir. Hər bir ölkədə təşkilatın öz model və yanaşmaları hazırlanır. Eyni zamanda müxtəlif inkişaf dövrlərində bir ölkədə büdcə sisteminin müxtəlif səviyyələri arasında gəlir və xərclərin ayrılması qaydasında olduğu kimi, büdcə tarazlaşdırılmasının tətbiq olunan metodlarında da xeyli fərqlər mövcuddur. Mövcud qanunvericiliklə müəyyən olunmuşdur ki, büdcələrarası münasibətlər funksiya və səlahiyyətlərin dövlət idarəçiliyinin səviyyələri arasında dəqiq ayrılmasına, gəlir və xərclərin büdcələrin səviyyələri arasında bərabər bölgüsünə, həmçinin büdcələrarası münasibətlərin təyin olunması üsullarının eyniliyinə və şəffaflığına əsaslanır. [5, s.14]

**Büdcələrarası münasibətlərin təşkili prinsipləri**

Yuxarıda qeyd olunanlara əsasən, fikrimizcə, büdcələrarası münasibətlərin təşkilinin aşağıdakı prinsiplərini təsnifləşdirmək olar:

– aşağı səviyyəli büdcələr üçün stabil xarakterə malik, xarici amillərin təsirindən asılı olmayan vergi və qeyri-vergili daxilolmaların təsbit olunması;

– yenidən bölüşdürmə xarakterinə malik vergilər, habelə vergi bazasının qeyri-bərabər yerləşdirilməsi büdcə sisteminin daha yüksək səviyyələri üçün təsbit olunması;

– büdcə üçün vergilərin və digər icbari ödənişlərin təsbit olunması zamanı onların yığılmasının ən yüksək dərəcəsini təmin edən büdcə səviyyəsinə üstünlük verilməsi;

– ölkənin inzibati-ərazi vahidlərinin büdcə təminatı səviyyələrinin tarazlaşdırılması;

– dövlət xidmətlərinin yerli icra orqanları tərəfindən bərabər səviyyədə təqdim olunması;

– dövlət xidmətlərinin təqdim olunmasının maksimal effektivliyi və məhsuldarlığı, dövlət xidmətlərinin ən yüksək effektiv və məhsuldar istehsalını və göstərilməsini təmin edən dövlət idarəçiliyi səviyyəsi üçün təsbit olunması;

– alınan rəsmi transfert və kreditlərin effektiv və məqsədli istifadəsi üçün büdcənin hər bir səviyyəsinin məsuliyyətinin müəyyənləşdirilməsi.

Büdcələrarası tənzimləmə sistemində bir sıra məsələlərin həll edilməsi üçün aşağıdakı alətlərdən istifadə edilməsi məqsədəuyğundur:

– bütün səviyyəli büdcələrin gəlir və xərclərinin obyektiv planlaşdırılması məqsədi ilə ölkənin və onun ərazilərinin sosial-iqtisadi inkişafının monitorinqi;

– idarəetmənin hər bir səviyyəsinin real müstəqilliyi üçün şəraitin yaradılması, xüsusi maliyyə bazasının inkişafının stimullaşdırılması;

– mərkəzi vergilərin üzərinə əlavələr etmək üçün ölkənin büdcə qanunvericiliyi ilə təsdiqlənən hüququ, yaxud müəyyən səlahiyyətlər çərçivəsində vergilər üzrə güzəştlərin verilməsi hüququnun təmin olunması;

– yerli büdcələrin əlavə gəlir mənbələrinin – bələdiyyə istiqrazlarının, büdcə kreditlərinin cəlb olunması;

– yuxarı səviyyəli büdcələrin dotasiyalar, subvensiyalar və subsidiyalar vasitəsilə maliyyələşdirilməsi;

– ərazilərin inkişafının məqsədli proqramlarının tərtib olunması;

– tənzimləyici vergilərin büdcə sisteminin səviyyələri arasında normativlər və s. üzrə bölüşdürülməsi.

Yerli büdcələrin real müstəqilliyinin təminatı məsələləri kompleks yanaşmanı tələb edir. Burada, zənnimizcə, bir sıra amillərin nəzərə alınması vacibdir:

– yerli özünüidarəetmə orqanlarının məxaric səlahiyyətlərinə uyğun olaraq büdcələrin gəlir mənbələri ilə təminatı;

– müvafiq ərazilərin əhalisinin və sahibkarlıq subyektlərinin maraqlarının nəzərə alınması;

– pul axınlarının hərəkətinin şəffaflığı, yerli büdcə vəsaitlərinin formalaşdırılması və xərclənməsi haqqında informasiyanın şəffaflığı;

– yerli büdcələrin vəsaitlərinin formalaşdırılması və xərclənməsi prosesinə nəzarətin gücləndirilməsi.

İnkişaf etmiş ölkələrdə ərazilərin idarəetməsi inkişafının təcrübəsi yerli hakimiyyət orqanlarına onların tabeliyində olan ərazilərin sosial-iqtisadi problemlərinin həllində geniş hüquqların verilməsinin, idarəetmənin qeyri-mərkəzləşdirilməsinin zəruriliyini təsdiqləyir.

Qeyri-mərkəzləşdirmə siyasətinin ən mühüm tərkib hissəsi aşağıdakıları nəzərdə tutan büdcə qeyri-mərkəzləşdirilməsidir:

- vəsaitlərin xərclənmə istiqamətlərini müstəqil şəkildə müəyyən etmək hüququ;

- yuxarı hakimiyyət orqanları tərəfindən qəbul olunan qərarlar nəticəsində meydana çıxan xərclərin kompensasiyası hüququ.

İqtisadi ədəbiyyatda əhalinin mövcud ehtiyaclarının mərkəzləşdirilmiş və yerli büdcələr səviyyəsində ödənilməsi, onun kəmiyyəti və ya nisbətləri, mənbələri və s. haqqında fikirlər kifayət qədər müxtəlif və mübahisəli məsələlərdəndir. [6, s.26; 7, s.32] Azərbaycan Respublikasının “Büdcə sistemi haqqında” Qanununda da bir sıra sahələrin və funksiyaların həm mərkəzləşdirilmiş, həm də yerli büdcələr səviyyəsində birgə yerinə yetirilməsi nəzərdə tutulduğundan, bu problemin aktuallığı və əhəmiyyəti bir qədər də artır.

Fikrimizcə, ictimai vəsaitlərin istifadəsində qeyri-mərkəzləşdirmə aşağıdakı hallarda məqsədəuyğundur:

– bu istifadənin mənfəəti müvafiq ərazidə lokallaşır;

– bu ərazinin əhalisi ictimai rifaha tələbatının böyük hissəsini özü maliyyələşdirir.

Regionların sosial-iqtisadi inkişafının problemlərinin səmərəli həlli ən çox yerli özünüidarəetmə orqanları üzrə dövlət funksiyalarının necə paylanmasından asılıdır. Dövlət idarəçiliyinin qeyri-mərkəzləşdirilməsi büdcə vəsaitlərinin istifadəsinin qeyri-mərkəzləşdirilməsini, regional və yerli səviyyələrdə müstəqil büdcələrin formalaşdırılmasını tələb edir.

Büdcə sisteminin gəlir və xərclərinə dair məsələlərin həlli zamanı obyektiv qanunlara əsaslanmaq lazımdır. [8, s. 421] Bununla əlaqədar, aşağıdakı məsələlər diqqət mərkəzindədir:

– səlahiyyətlərin idarəetmə səviyyələri arasında optimal paylanması;
– sosial xərclərin səmərəli maliyyələşdirilmə səviyyəsi;
– mərkəzi hökumətin yerli hakimiyyət orqanlarının idarə olunmasına və maliyyələşdirilməsinə müdaxiləsinin dərəcəsi;
– xüsusi vəsaitlərin yerli hakimiyyət və idarəetmə orqanlarının xərclərinin maliyyələşdirilməsindəki payı;
– iqtisadiyyatın bütün səviyyələrində maliyyə vəsaitlərinin xərclənməsinə nəzarət forması.

Hal-hazırda yerli özünüidarəetmənin təşkili və həyata keçirilməsi məsələləri arasında bir sıra problemlər mövcuddur. Məlum olduğu kimi, inkişaf etmiş ölkələrdə yerli özünüidarəetmə bir neçə mərhələdə yaranır və bu proses tarixən uzunmüddətli xarakter daşıyırdı.

Ölkəmizdə yerli özünüidarəetmənin təşəkkülü və inkişafı prosesi nisbətən yaxın zamanlarda başlanmışdır. Büdcə regionalizmi modeli maliyyə funksiyalarının dövlət idarəçiliyinin unitar tipinə əlavə qeyri-mərkəzləşməsi və yerli özünüidarəetmə orqanlarının mərkəzi hakimiyyət siyasətinin bələdçilərinə çevrilməsi tendensiyasına malikdir. Bundan əlavə, hakimiyyətin müxtəlif səviyyələri arasında gəlir və məxaric səlahiyyətlərinin dəqiq sərhədləri müəyyənləşdirilmişdir.

Dünya maliyyə nəzəriyyəsi və praktikası müəyyən edir ki, yerli büdcələr büdcə sisteminin müstəqil hissəsi kimi fəaliyyət göstərir. Büdcənin müstəqilliyi dedikdə, regional idarəetmə orqanının ona təhkim olunan gəlir bazası əsasında büdcənin həcmini, konkret strukturunu, gəlir və xərclərin maddələr üzrə məbləğini özünün müəyyənləşdirdiyi müddəa başa düşülür. Onun icrası regional idarəetmə orqanlarının bu sahədə hüquqlarını müəyyən edən ölkə qanunvericiliyi əsasında həyata keçirilir. Digər tərəfdən, regionlar müəyyən tabelikdə yerləşən vahid təsərrüfat kompleksinin bir hissəsini təşkil edir və ondan kənarda mövcud ola bilmirlər. [9, s.26]

Fikrimizcə, büdcələrarası münasibətlərin balanslaşdırılmış sistemi aşağıdakıları tələb edən prinsiplərə əsaslanmalıdır:

- idarəetmənin hər bir səviyyəsində büdcələrinin müstəqilliyi;
- idarəetmə səviyyələrində gəlir və xərclər üzrə səlahiyyətlərin qanunvericiliklə ayrılması;
- büdcələrarası tənzimləmə və maliyyə dəstəyi məbləğinin hesablanma metodlarının rəsmiləşdirilməsi.

Yerli hakimiyyət orqanının qanunvericiliklə təsbit olunmuş iqtisadi müstəqillik hüquqlarının reallaşdırılması hər bir idarəetmə orqanının şəxsi büdcəsi olmadan və onun bu büdcəni tərtib etmək, təsdiqləmək və kənardan müdaxilə olmadan icra etmək hüququ olmadan mümkün deyil. Bu o deməkdir ki, hər bir idarəetmə orqanının öz ərazisində iqtisadiyyatın və sosial sferanın idarə olunmasının təşkili üçün kifayət qədər maliyyə resursları olmalıdır. Eyni zamanda, yerli hakimiyyət orqanları tabelikdə olan ərazilərin idarə olunmasının təşkili üçün yerli büdcənin artırılmasını təmin edən effektiv vasitələrə müvafiq büdcəyə daxil olan vergilərin və başqa məcburi ödənişlərin idarə olunmasında nisbi müstəqilliyə malik olmalıdır. [10, s.112]

**Maliyyə qeyri-mərkəzləşdirilməsinin əsas problemləri**

Yuxarıda deyilənləri nəzərə alaraq bir çox ölkələrdə maliyyə qeyri-mərkəzləşdirilməsinin əsas problemlərini aşağıdakı kimi formalaşdırmaq olar:
– yerli hakimiyyət orqanlarının iqtisadi və maliyyə bazasının səviyyəsi;
– yerli hakimiyyət orqanlarının elmi-metodiki və informasiya təminatının dövlət məsələlərinin həllindəki yeri və rolunun zəif olması;
– yerli idarəetmə fəaliyyətinə yalnız dövlət tərəfindən deyil, həm də əhali və cəmiyyət tərəfindən aparılan nəzarət mexanizmlərinin mükəmməl olmaması;
– yerli büdcələrin artırılması üçün yerli icra orqanlarında motivasiyaların olmaması;
– yerli hakimiyyətlər üçün mümkün resurslarla onlar üçün təsbit olunmuş məxaric səlahiyyətləri arasındakı disbalansın olması.

Maliyyə qeyri-mərkəzləşdirilməsi və büdcələrarası tənzimləmənin kompleks problemlərinin həlli üçün inkişaf etmiş ölkələrin təcrübəsinin nəzərə alınması məqsədəuyğundur. Aparılan çox-

saylı tədqiqatlar göstərmişdir ki, qeyri-mərkəzləşdirilmə mərkəzi hökumətin makroiqtisadi prosesləri idarə etmək bacarığına mənfi təsir göstərə bilər, belə ki, yerli hakimiyyətlərin hərəkətləri mərkəzi hökumətin baxışları ilə ziddiyyət təşkil edə bilər. [11, s.13]

Fikrimizcə, maliyyə qeyri-mərkəzləşdirilməsinin səmərəli siyasətinə kömək edən əsas nəzəri müddəaları qısaca belə ifadə edə bilərik:

– dövlət idarəçilik səviyyələrinin idarəetmə predmetlərinin və səlahiyyətlərinin bölünməsini elə həyata keçirmək lazımdır ki, onlar bir-birini təkrarlamasın;

– gəlir və xərclərin büdcə sisteminin səviyyələri arasında bölünməsini tənzimləyən qanunvericilik sabit olmalı və regionların maraqlarını nəzərə almalıdır;

– yüksək inzibatçılıq, səlahiyyətlərin yerlərinin dəyişdirilməsi və qəbul olunan qərarların nəticələrinin aradan qaldırılması üçün idarəetmə predmetləri üzrə məsuliyyət minimuma endirilməlidir;

– vergi siyasəti büdcə sisteminin müxtəlif səviyyələrini ərazilərin iqtisadi inkişafından öz gəlir payını götürmək imkanı ilə təmin etməlidir.

Maliyyə qeyri-mərkəzləşdirilməsinin əsasını yerli büdcələrin öz gəlir mənbələrinin olması təşkil edir. Biz büdcələrarası münasibətlərin səmərəli təşkilinin prinsiplərini nəzərdən keçirərkən onların inkişaf vektorunun qurulmasının, məqsədlərinin dəqiq müəyyənləşdirilməsinin zəruriliyini qeyd etməliyik. Yuxarıda qeyd olunanları nəzərə almaqla büdcələrarası münasibətlərin səmərəli təşkilinin məqsədi: bütün ölkədə olduğu kimi, regionlar kəsiyində də istehsal həcminin böyüməsi və regionlarda və ərazilərdə yaşayan vətəndaşların real gəlirlərinin artmasıdır.

Büdcələrarası regionalizm və maliyyə qeyri-mərkəzləşdirilməsinin mexanizmi dövlətin, əhalinin və sahibkarlığın maraqlarının ağıllı kompromisinin əldə olunmasına əsaslanmalıdır. Bu kompromis yalnız regionların iqtisadi inkşafının təmin olunması şəraitində əldə oluna bilər. Ölkənin iqtisadi potensialı mərkəzi hakimiyyət səviyyəsində formalaşmır, o, bütün ölkə ərazisində yaranır. [12, s. 24]

Eyni zamanda idarəetmənin və məxaric səlahiyyətlərinin ötürülməsi qəbul edilən qərarların və maliyyə nəzarətinin təsirli tədbirlərinin nəticələrinə görə hər bir yerli hakimiyyət səviyyəsinin məsuliyyəti ilə müşayiət olunmalıdır, bu da qanunvericiliklə təsdiq olunmuş qaydada aparılmalıdır. Qeyd etmək lazımdır ki, uzun müddət büdcə sisteminin səviyyələrinin ayrılması və müxtəlif idarəetmə səviyyələrinin səlahiyyətlərinin bölünməsi haqqında məsələ tarixi ölçülərə görə nisbətən yaxın zamanlarda qoyulmuşdur. İctimai maliyyələr, ictimai rifah haqqında elm iqtisadi nəzəriyyəyə paralel olaraq inkişaf edir.

## *Nəticə*

Maliyyə tənzimləməsinin hər bir ölkədə model çərçivəsində tətbiq olunan metodları öz spesifikasiyası ilə fərqlənir, onlar tarixi ənənələrin inkişafının nəticəsidir və heç də həmişə dünyanın digər ölkəsində istifadə oluna bilməzlər. Təcrübə göstərir ki, dünyanın heç bir ölkəsində büdcə müstəqilliyinin elə bir modelini qurmaq mümkün olmamışdır ki, yerli hakimiyyət orqanlarının gəlir səlahiyyətlərinin həcmi bu hakimiyyət səviyyəsi üçün təsbit olunmuş məxaric səlahiyyətləri ilə tam üst-üstə düşsün. Bu səlahiyyətlərin üst-üstə düşməmələri nəticəsində şaquli və üfüqi disbalanslar yaranır, bunların da qapanması üçün büdcələrarası münasibətlərin müxtəlif formaları istifadə olunur.

Fikrimizcə, bununla əlaqədar, maliyyə tarazlaşdırmasının xaricdə tətbiq olunan metodlarının sistemləşdirilməsi böyük praktiki əhəmiyyətə malikdir. Beynəlxalq təcrübə əyani olaraq nümayiş etdirir ki, maliyyə tarazlaşdırmasının bu və ya digər ölkədə tətbiq olunan metodları sistemli şəkildə və hüquqi, siyasi, institusional xarakterli vasitələrlə birgə istifadə olunur, dövlətin məsuliyyət və nəzarət tədbirləri ilə tamamlanır. Real sosial-iqtisadi, siyasi şəraiti və tarixi ənənələri nəzərə almasaq, bir ölkədə uğurla tətbiq olunan maliyyə vasitələri digər ölkədə fasilələrə səbəb ola bilər. [13, s.134] Bununla əlaqədar, aşağıdakı məsələlər respublikada müasir şəraitdə mühüm metodoloji əhəmiyyətə malik ola bilər:

– ölkə üçün qəbul olunan maliyyə qeyri-mərkəzləşdirilməsinin dərəcəsi;

– gəlirlərin və məxaric səlahiyyətlərinin bölünməsi sahəsində mövcud qanunvericiliyin effektivliyi;

– büdcələrarası münasibətlərin tətbiq olunan metodlarının effektivliyi;

– yerli büdcələrin yaranmasının müasir təcrübəsində qeyri-vergi mənbələrindən istifadə etmək imkanları;

– regional maliyyə siyasətinin stimullar və sanksiyalar sisteminin təsirliliyi;

– büdcələrin yerli icra orqanlarının məxaric səlahiyyətlərinə uyğun olaraq gəlir mənbələri ilə təmin olunması;

– pul axınlarının hərəkətinin şəffaflığı, yerli büdcə vəsaitlərinin formalaşdırılması və xərclənməsi haqqında informasiyanın şəffaflığı.

Maliyyə resurslarının səmərəli istifadəsi üçün elə büdcə və vergi tənzimlənməsi qurulmalıdır ki, o, minimal yerli büdcələrin yaradılmasını təmin etsin, bələdiyyə qurumlarının vergitutma bazasının optimallaşdırılması üçün şərait yaratsın və büdcə liberalizminin inkişafına imkan yaratsın. Büdcə liberalizminin təməli – büdcənin bütün səviyyələrinin, məsələn, onlar üçün təsbit olunmuş xüsusi vergilər vasitəsilə müstəqilliyidir. Lakin, buna çox az hallarda tam nail olunur, çünki vergi daxilolmaları adətən, regional və yerli büdcələrin bütün xərclərini təmin edə bilmir. Nəticədə, daha yüksək səviyyəli büdcələr, adətən, daha aşağı səviyyəli büdcələrə subsidiyalar ayırır. [13]

Dövlət qanunlarının qəbulu praktikasında bəzi dəyişikliklərə baxmayaraq, bizim ölkəmizdə əksər bələdiyyə qurumlarının büdcələri hələ də balanslaşdırılmayıb və yoxsuldur. Bununla yanaşı, yerli özünüidarəetməyə malik bütün ölkələrdə, yerli özünüidarəetmə orqanları sosial konsensusun, iqtisadi rifahın və stabil inkişafın yalnız onların tabeliyində olan ərazi hüdudlarında deyil, bütün ölkədə əldə olunmasında həlledici rola malikdir. Yerli orqanlar bu məqsəd üçün lazımi maliyyə resurslarına malik olmalıdır.

## ƏDƏBİYYAT


1. “Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu. 16 dekabr 2016-cı il. https://president.az/articles/22458
2. Модели и методы оптимизации региональных программ развития // Н.Г. Андронникова, С.А. Баркалова, В.Н. Бурков, А.М. Котенко. М.: ИПУ РАН, - 2001, - 22-31 с., 139.
3. Бежаев, О.Г. Межбюджетные отношения: теория и практика реформирования / Под ред. М.А.Яхъяева. М.: Экзамен, - 2001, - 128 с., 94.
4. Мельников, В.Д. Финансы, Алма-аты, - 1997, - 472 с.,116.
5. Ходорович, М.И. Проблемы межбюджетных отношений в Российской Федерации // Финансы. – 1995, - № 10, - с.15-20., s.14
6. Чернявский, А. Бюджетная децентрализация в странах с переходной экономикой / А. Чернявский, К. Вартапетов // Вопросы экономики. – 2004, - № 11, - с. 126-139., s.26;
7. Швецов, А. Н. Соотношение централизации и децентрализации в государственной региональной политике: о сложившейся ситуации, необходимости и путях ее решения / А.Н.Швецов//Российский экономический журнал. – 2006, - № 5-6, - С. 14-35. s.32
8. Кюрджиев, С.П., Паршукова, О.Ю., Гринева, Ю.А. Межбюджетные отношения как механизм финансовой сбалансированности региональной экономической политики муниципального уровня. - М.: Вуз. книга, - 2010, - 615 с. s.421
9. Шмакова, С. А. Межбюджетные отношения: Определение и сущность // Сибирский Юридический Вестник. – 2005, - № 2, - 22-28 с.s.26
10. Кюрджиев, С.П., Уварова Г.Г., Мащенко Ю.Ю. и др. Современные проблемы управления региональной экономикой. Ростов-на-Дону, Академцентр, - 2011, - 295 с. s.112

11. Позднякова, А, Лавровский, Б., Масаков, В. Политика регионального выравнивания в России // Вопросы экономики. – 2000, -№ 10, - 13-19 с. s.13
12. Байрейтер, У. Региональные инструменты финансирования // ЭКО. – 2000, - № 2, - 21-26 c.s.24
13. Иванов, Н. П. Региональная экономическая политика (стратегия, инструментарий, эффективность): монография / Н. П. Иванов. Ставрополь: РИО ИДНК, - 2004, - 262 c.s.134
14. Бирюков, А.Р. К оценке бюджетной обеспеченности регионов// Финансы. – 2001,- № 44, - 32-38 c.s.33

***Фарид Рафик оглы Мамедгасанов***
***докторант АзГЭУ***
***E-mail: fmammadhasanov@gmail.com***

## Сбалансирование местных бюджетов в рамках межбюджетных отношений

***Резюме***

**Целью исследования** является создание эффективной системы организационно-экономического механизма межбюджетных отношений, перераспределение финансовых ресурсов страны между местными бюджетами и изучение возможности сбалансирования местных бюджетов в рамках межбюджетных отношений.

**Методология исследования** - для решения поставленных задач использовались: методы логическое обобщение; структурно-функциональный анализ; системно-комплексные методы анализа и оценки.

**Значимость исследования** заключается в том, что оно позволит повысить эффективность целевого использования местных бюджетов с учетом социально-экономических приоритетов межбюджетных отношений.

**Результаты исследования** - полученные результаты могут быть использованы при подготовке предложений и рекомендаций по перераспределению финансовых ресурсов страны между местными бюджетами и сбалансированности местных бюджетов в рамках межбюджетных отношений.

**Оригинальность и научная новизна исследования -** в статье анализируются методы организации межбюджетных отношений как важного элемента финансового обеспечения регионов Азербайджанской Республики, современное состояние регулирования межбюджетных отношений в устойчивом развитии регионов, а также выявляются проблемы с применением межбюджетных трансфертов. Также сформированы аналитические базы для сбалансирования финансового обеспечения регионов, организации межбюджетных отношений, минимизации взаимных финансовых потоков между центральным и местными бюджетами, определены методические принципы и критерии межрегионального перераспределения финансовых ресурсов, обоснованы поддержки различных мер с учетом их важности.

***Ключевые слова: межбюджетные отношения, сбалансированность бюджета, бюджетное регулирование, финансовое обеслечение, центральные и местные бюджеты, регулирующие налоги.***

*Farid Rafig Mammadgasanov*
*doctoral student of AzSUE*
*E-mail: fmammadhasanov@gmail.com*

**Balancing local budgets within the framework of interbudgetary relations**

***Summary***

**The purpose of the study** is to create an effective system of organizational and economic mechanism of interbudgetary relations, redistribute the country's financial resources between local budgets and study the possibility of balancing local budgets within the framework of interbudgetary relations.

**Research methodology -** to solve the tasks set, the following methods were used: methods of logical generalization; structural-functional analysis; system-integrated methods of analysis and evaluation.

**The significance of the study** lies in the fact that it will improve the efficiency of targeted use of local budgets, taking into account the socio-economic priorities of interbudgetary relations.

**Results of the study -** the results obtained can be used in the preparation of proposals and recommendations for the redistribution of the country's financial resources between local budgets and the balance of local budgets within the framework of interbudgetary relations.

**Originality and scientific novelty of the research -** the article analyzes the methods of organizing interbudgetary relations as an important element of financial provision of the regions of the Azerbaijan Republic, the current state of regulation of interbudgetary relations in the sustainable development of regions, and also identifies problems with the use of interbudgetary transfers. Analytical bases have also been formed to balance the financial support of the regions, organize interbudgetary relations, minimize mutual financial flows between the central and local budgets, define methodological principles and criteria for interregional redistribution of financial resources, justify support for various measures, taking into account their importance.

***Key words: interbudgetary relations, budget balance, budgetary regulation, financial provision, central and local budgets, regulating taxes.***